*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 sentyabr 2019-cu il № 71 (2388) Qiyməti 30 qəpik

*Ön xətdən reportaj*

## “Azərbaycan Ordusu tezliklə tarix yazacaq”



*Əsrarəngiz yay səhəridi. Həmişəki kimi səngərə - əsgərlərimizlə görüşə can atırıq. Günəş dağın arxasından boylanmağa cəhd göstərir. Dan yeri yenicə ağarıb. Həzin səhər mehi əsir. Quşların səs-səsə verib cəh-cəh vurması gözəlliyə öz çalarını qatır və onların ilk baxışdan çox sadə görünən bəstələrinin ən mükəmməl klassik əsərləri belə kölgədə qoyduğunun mahiyyətinə varıram. Rəngarəng təbiətlə bütünləşdiyim indiki məqamda, başda ağaclar olmaqla, bütün bitkilər, xüsusilə, güllər, çiçəklər mənə doğma gəlir. Mənə elə gəlir ki, təbiətlə insanın əkizliyi həqiqətilə üz-üzə qalmışam.*

Əslində, canlı təbiətin onu qədərincə duyanlara, dərk edənlərə kəskin ehtiyacı var. Bu baxımdan, şübhəsiz ki, həmişə yollara boylanan dağlar da, başı qarlı dağları həsrətlə seyr edən insanlar da bir-birinin intizarındadır. Hər ikisi yaxşı bilir ki, bu intizara Azərbaycan əsgəri son qoyacaq.

Bir həqiqəti bilirik və ona görə də sevincliyik ki, getdiyimiz bu yol bizi xalqımızın həsrətinə son qoyacaq, işğalda olan torpaqlarımızı düşməndən azad edəcək Azərbaycan əsgəri ilə görüşə aparır. Yolboyu düşüncələr məni rahat buraxmır. Düşünürəm ki, əsgərlərimizlə görüşə qədər olan zaman kəsimi qədər bir zaman bizi Böyük Qələbədən ayırır. Kapitan Elmin Aslanov fikirlərimi duyurmuş kimi qeyd edir ki, bu gün Azərbaycan Ordusu torpaqlarımızı azad etmək gücündədir. "Ordumuzun döyüş hazırlığı səviyyəsi durmadan yüksəldilir, şəxsi heyət müasir silah və texnika ilə təchiz edilir, yeni poliqonlar inşa edilir, döyüş şəraitinə uyğun təlimlər həyata keçirilir. Vəzifəsindən asılı olmayaraq, hər bir hərbi qulluqçu verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirməyə qadirdir. Həyata keçirilən təlimlər, yoxlamalar və digər tədbirlər əsgər və zabitlərimizin müasir döyüşün ən mürəkkəb tapşırıqlarını belə müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduqlarını, döyüş qabiliyyətlərini və peşəkarlıqlarını, yeni silah sistemlərindən və döyüş texnikasından ustalıqla istifadə etmək bacarıqlarını əhəmiyyətli dərəcədə artırdıqlarını göstərir".

Müəyyən məsafəni qət etdikdən sonra səngərə yetişirik. Səngərdə ilk həmsöhbətimiz müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Münasib Misirov olur. "Bu gün ordumuz günü-gündən böyüyür və güclənir", - deyə manqa komandiri bildirir. - Xalqımızın bizə inamı və güvəni sonsuzdur. Qarabağı azad etmək biz hərbçilərin üzərinə düşür. Vətənə inam, xalqa sədaqət bizi qələbəyə sövq edir. İnanıram ki, torpaqlarımızın müdafiəsi naminə qələbəyə qədər döyüşəcək, əzəli torpaqlarımızı erməni işğalçılarından azad edəcəyik.

Əsgər Qəhrəman Məmmədov bildirir ki, bunun üçün bizim başlıca məqsədimiz hərbi bilikləri mənimsəməkdir. "Məhz dərindən öyrəndiklərimizin hesabına düşmənə qalib gələ bilərik. Aprel döyüşləri sübut etdi ki, aparılan əməliyyatlarda təcrübə və bilik xüsusi əhəmiyyət kəsb etdi".

Əsgər Orxan Mürsəlov qeyd edir ki, mütəmadi keçirilən təlimlərin hesabına döyüş hazırlığımız yüksəlir: “Döyüşmək üçün təhkim olunan silahın taktiki-texniki xüsusiyyətlərini bilmək vacib şərtdir. Bu amil qazanılacaq qələbədə böyük əhəmiyyət daşıyır. Lakin ən mühüm amil düşmənləri qəlbimizdəki Vətən sevgisinin, Vətən məhəbbətinin atəşinin köməyi ilə məhv etməkdir. Vətən sevgisi olmasa, qazanılan təcrübə ilə heç nəyə nail olmaq olmaz.”

**(Ardı 2-ci səhifədə)**



15 sentyabr - qürur duyulası gün

3-cü səhifədə



Hərbi təhsil ordu quruculuğunun təməl daşıdır

6-cı səhifədə



“Hərbi dənizçilərimiz hər zaman qalib olmağa hazırdırlar”

7-ci səhifədə



Yaşarıdı, bəşəridi əsgər dostluğu

8-ci səhifədə

# Müdafiə naziri “TurAz Qartalı-2019” birgə taktiki-uçuş təlimlərində iştirak edən şəxsi heyətlə görüşüb



*Müdafiə naziri general-polkovnik Zakir Həsənov, nazirliyin rəhbər heyəti və Türkiyə Respublikasının Azərbaycandakı hərbi attaşesi, briqada generalı İsmail Hakkı Köseali "TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimlərində iştirak edən Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri aviasiya vasitələrinin yerləşdiyi aerodroma gəliblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə hər iki dövlətin himnləri səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkələrimizin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri təlimlərdə iştirak edən şəxsi heyəti salamlayaraq çıxışına ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" və türk xalqının öndəri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə başlayıb.

Ölkələrimizin təhlükəsizliyi baxımından təlimlərin əhəmiyyətini vacib sayan Müdafiə naziri general-polkovnik Zakir Həsənov bunun hərbi gücümüzün daha bir nümunəsi olduğunu qeyd edib. O, təlim iştirakçılarına uğurlar arzulayaraq döyüş aviasiyasının uçuşlarının yüksək səviyyədə keçirilməsindən məmnun qaldığını ifadə edib.

Sonra təlimlərin yekununa dair yüksək səviyyəli qonaqlara brifinq təqdim olunub.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyətinin konsert proqramından sonra təlim iştirakçılarına hədiyyələr təqdim edilib. Qonaqlar və təlim iştirakçıları üçün birgə nahar təşkil edilib.



Qeyd edək ki, Pakistan İslam Respublikası Hərbi Hava Qüvvələrinin nümayəndələri təlimlərdə müşahidəçi qismində iştirak ediblər.

# “Azərbaycan Ordusu tezliklə tarix yazacaq”

**(Əvvəli 1-ci səhifədə)**

- Bütün mənliyimizi ana vətənimizə - Azərbaycana borcluyuq, - deyə əsgər Emin Həsənov söhbətə qoşulur. - Əsl vətənpərvər o adama demək olar ki, o, öz Vətənini bütün qəlbi ilə, canı və qanı ilə sevir, onun azadlığı və istiqlaliyyəti uğrunda hər an canını qurban verməyə hazırdır.

Əsgər Xaləddin Mahmudov isə bildirir ki, 20 faiz torpağımız mənfur düşmənlərin işğalı altında olduğundan Vətənimizin hər qarışını azad etmək və qorumaq bizim üzərimizə düşür. “Hərbi andı qəbul edən zaman and içmişik ki, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaq, bundan ötrü qanımızı və canımızı əsirgəməyəcəyik. Bilirəm ki, hər bir əsgər içdiyi Hərbi anda sadiqdi və Şuşa qalasında, Cıdır düzündə üçrəngli Azərbaycan bayrağını dalğalandıracağına ümidlidi.”

Əsgər Təyyar Bayramov isə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğıdan söz açır: "Ölkə və ordu rəhbərliyindən göstərilən yüksək diqqət və qayğı hər birimizdə Qələbə ruhunu yüksəldib. Artıq Azərbaycan Ordusu Ermənistan üçün böyük təhlükə mənbəyidir. Düşmənlər də verdiyi açıqlamalarda öz məğlubiyyətlərini etiraf edirlər, xüsusən Aprel döyüşlərindən sonra. İndi Azərbaycanın həm hərbi, həm psixoloji, həm də strateji baxımdan üstünlük qazandığı inkar edilməz səviyyədədir. İnanırıq ki, bu üstünlüklər xalqımızın səbirsizliklə gözlədiyi Qələbəyə gətirib çıxaracaq".

Söhbətimizin bu yerində zabit Elşad Əbilov da münasibət bildirir: "Bildiyiniz kimi, Azərbaycan Ordusunun yaradılması müstəqil dövlət quruculuğu prosesinə, respublikamızın suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsinə xidmət edən ən mühüm addımlardan biridir. Dövlət quruculuğunun mühüm tərkib hissəsi olan Azərbaycan Ordusunun zəngin hərbi ənənələrini qoruyub saxlamaqla Ali Baş Komandan cənab İlham Əliyev bu sahənin ölkə rəhbərliyinin diqqət mərkəzində olduğunu bir daha sübut etdi. Ümummilli Liderimiz tərəfindən əsası qoyulan strategiyanın tərkib hissəsi olan Azərbaycan Ordusu ölkənin milli təhlükəsizliyi baxımından siyasi, hərbi, iqtisadi, psixoloji hadisələrin ardıcıl və məntiqli bir sistem içərisində olmasında əhəmiyyətli yerə sahibdir. Bu mənada reallıq sübut edir ki, ordumuz xalqına sevinc bəxş etmək iqtidarındadır.”



Əsgər Xalid İlyasov isə bildirir ki, vətənpərvərlik ruhu yüksək olan Azərbaycan əsgərinin başqa missiya haqda düşünməyə haqqı çatmır. Biz əminliklə deyə bilərik ki, gündən-günə güclənən, qüvvətlənən şanlı Azərbaycan Ordusunun qələbə sorağı, üçrəngli bayrağımızı Qarabağda sancacağımız gün uzaqda deyil. Azərbaycan Ordusunun şəxsi heyəti səbirsizliklə Ali Baş Komandanımızın əmrini gözləyir. Azərbaycanın bu gün döyüş hazırlığı, maddi-texniki təchizatı, silah-sursatı, peşəkar ordusu, ruh yüksəkliyi də qələbənin təminatına əminlik yaradır. Aprel döyüşləri və Günnüt zəfəri də onu göstərdi ki, biz işğal altındakı bütün torpaqlarımızı azad edəcəyik. Şəxsi heyət bu müqəddəs yolda hər an əldə silah döyüşməyə, unudulmaz tarix yazmağa və xalqımızı sevindirməyə hazırdır.

**Mayor
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan Ordusu genişmiqyaslı təlimlər keçirəcək

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, sentyabrın 16-dan 20-dək Müdafiə nazirinin rəhbərliyi altında Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, hərbi birlik və birləşmələrinin cəlb edilməsi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək.

Təlimin mövzusunda dağlarda əks-hücum əməliyyatının təşkili və keçirilməsi, düşmən qruplaşmasının darmadağın edilməsi məqsədilə qabaqlayıcı zərbələrin endirilməsi və azad edilmiş ərazilərdə əlverişli hədlərin tutulması üzrə fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulub.

Təlimlərə 10.000 nəfərədək şəxsi heyət, 100-dən çox tank və digər zirehli texnika, 120 müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 20-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunacaq.

Mürəkkəb şəraitdə, dağmeşə, qayalıq ərazilərdə və çətin radioelektron mübarizə mühitində keçiriləcək təlim zamanı ön və yandan keçmə dəstələrinin əsas zərbə qruplaşmaları, eləcə də artilleriya, aviasiya və döyüş düzülüşünün digər elementləri ilə qarşılıqlı əlaqədə fəaliyyətin təşkili üzrə tapşırıqlar icra ediləcək.

Təlimdə əsas diqqət qoşunların idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsinə, həmçinin döyüş, mənəvi-psixoloji və maddi-texniki təminat məsələlərinə yönəldiləcəkdir.

Bütün fəaliyyətlər döyüş atışlı mərhələlərdən ibarət olmaqla, döyüş vəziyyətinə maksimal uyğun şəraitdə müxtəlif poliqon və təlim mərkəzlərində keçiriləcək.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***13 sentyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Yusifcanlı, Füzuli rayonunun Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Tarix

# 15 sentyabr - qürur duyulası gün

*15 sentyabr 1918-ci il xalqımızın, taleyində önəmli günlərdən biri kimi tarixləşib. Bu günlə hər birimiz qürur duyur, fəxr edirik. Həmin gün xalqımızın tarixinə böyük hərflərlə yazılıb. Bu şərəfli gündə Azərbaycan Xalq Cümhuriyyətinin və Qafqaz İslam Ordusunun qüvvələri Bakını bolşeviklərdən, ermənilərdən və eser-menşeviklərdən azad ediblər. Tarixçilər, siyasətçilər zaman-zaman həmin günə böyük önəm veriblər.*

101 il əvvəl Bakının azad edilməsi heç də asanlıqla başa gəlməmişdi. Çünki o dövrdə Bakıda gözü olan bir neçə hegemon dövlət və daxili qüvvələr var idi. İngilislər, almanlar, ermənilər, bolşeviklər və başqaları nəyin bahasına olursa-olsun, şəhəri əldə saxlamağa çalışırdılar. Hadisələrin gedişini diqqətlə izləyən SSRİ-nin Xarici İşlər naziri Çiçerin Osmanlı hökumətinin Moskvadakı səfiri Qalib Kamala nota təqdim edərək Sovetlərin Brest-Litovsk müqaviləsi ilə Qars, Ərdahan və Batumini Osmanlı dövlətinə verdiyini, lakin bundan sonra türklərə heç bir güzəştə getməyəcəyini bildirdi. Notada türk hərbi qüvvələrinin Gümrünü ələ keçirməsi, bununla kifayətlənməyərək, Azərbaycanın daxilində Bakıya doğru irəliləməsi Sovetlər üçün onsuz da ağır olan Brest-Litovski müqaviləsinin kobud şəkildə pozulması kimi qiymətləndirilir və hərbi əməliyyatların təcili dayandırılması tələb olunurdu. Bununla kifayətlənməyən Çiçerin, həmçinin Bakı neftində gözü olan Almaniyanı müttəfiqi Osmanlı dövlətinə qarşı qaldırmaq üçün də bir sıra addımlar atdı. Türkiyə rəsmiləri isə Qafqazdakı hərbi əməliyyatları Nuru paşanın heç kimdən əmr almadan girişdiyi şəxsi təşəbbüsü və Azərbaycandakı türk könüllüləri ilə birgə başladığı fəaliyyəti kimi qələmə verərək, Osmanlı dövləti ilə heç bir əlaqəsi olmadığını bildirirdi. Amma Bakı neftinə sahib olmaqdan ümidlərini üzməyən və "uğurları öz adına çıxmaq istəyən" almanlar şəhərin alınmasında iştirak etmək üçün Tiflisdə olan bir alman batalyonunun Qafqaz İslam Ordusuna qoşulmasına nə qədər cəhd etsələr də, Nuru paşa buna icazə verməmişdi. Almanlar icazəsiz olaraq Bakı istiqamətinə doğru hərəkət edərkən batalyonun qarşısı dəmir yolunun dağıdılması və teleqraf xətlərinin kəsilməsi ilə alınmışdı.

Azərbaycandakı hadisələri diqqətlə izləyən İngiltərə də neft Bakısının bolşeviklər ilə Osmanlı dövləti və Almaniyanın maraqlarının toqquşduğu meydana çevrildiyini və onların birinin əlinə keçəcəyi təqdirdə, ingilislərin əleyhinə olan nəticələrə gətirib çıxaracağını düşünürdü. Bakı türklərin və bilavasitə almanların əlinə keçəcəyi halda neftin borularla Batum limanına çatdırılmasının mümkün olacağı, bundan sonra ingilislərin mühüm bir mövqe əldə edəcəyi ehtimal edilirdi. Bakıdan İran və Türküstana, oradan da Əfqanıstana keçərək Hindistandakı ingilis müstəmləkə idarəçiliyi üçün böyük bir təhlükə yaradacaqdı. Beləliklə, ilk növbədə, Bakının türklərin əlinə keçməsinin qarşısını almaq lazım idi. Bu məqsədlə İngiltərə özünün İraqdakı hərbi qüvvələrindən bir hissəsini Fars Körfəzindən Xəzər dənizi sahillərinə göndərdi. Daha sonra bolşeviklərin hakimiyyətini qəbul etmədikləri halda, türk qoşunlarının qarşısının alınması zərurəti qarşısında rus polkovniki Biçeraxovun kazak dəstələrini Bakıdakı bolşeviklərə dəstək olmaq üçün göndərdi. Bakı komissarları hakimiyyətdən getdikdən sonra isə general Denstervilin komandanlığı altında ingilis qoşunları 1918-ci il 5 və 17 avqust tarixlərində Bakıda peyda oldular.



1918-ci ilin yayında, belə bir vəziyyətdə, belə bir şəraitdə Bakının azadlığı uğrunda döyüşlər gedirdi. Şəhəri xilas edəcək hərbi qüvvələr şəhərə birinci hücuma keçən müddət ərzində ordunun möhkəmləndirilməsi istiqamətində bir sıra mühüm işlər görməklə yanaşı, müntəzəm olaraq düşmən qüvvələri üzərinə həmlələr edir, onları zəiflədir və bir-birinin ardınca Bakı kəndlərini ələ keçirirdilər. Belə uğurlu döyüşlərin biri avqustun 27-də Yanardağ-Binəqədi istiqamətində oldu. Bakının "müdafiəçiləri" əksəriyyəti ingilislər olan qüvvələr ağır itki verdi. General Denstervil bu itkilərin olmasında, həmçinin 50-dən çox ingilis əsgərinin əsir götürülməsində rus və erməni qüvvələrini günahlandıraraq 31 avqust-1 sentyabr tarixlərində keçirdiyi iclaslarda "diktatorlara və cürbəcür komitələrə" belə bir açıq müraciət etdi: "İmkan verə bilmərəm ki, mənim adamlarımın həyatı faydasız yerə qurban verilsin. Biz buraya türklərə qarşı vuruşmaqda sizə kömək etmək üçün gəlmişdik, sizin vətəndaşlarınızın əylənməsi üçün yox". Daha sonra ingilis generalı yerli hakimiyyətə Bakının təslim edilməsi barədə danışıqlar aparmaq üçün türklərə nümayəndə göndərməyi təklif edərək birmənalı şəkildə bildirdi: "Yer üzündə heç bir qüvvə Bakını türklərdən qoruya bilməz".

General Denstervil həmin döyüşü gündəliyinə bu məzmunda yazıb: "...Türklər uğurlu əməliyyat apararaq palçıq vulkanlarını ələ keçiriblər. Bizim itkilərimiz 3 zabit və 70 əsgər. Nord Stafforddan olan hərbçilərimizdən 11 zabit öldürülüb, 35 əsgər yaralanıb. Hücum çox qətiyyətli xarakter daşıyıb. Həm də fikrimcə Bakını tutmaq üçün hücum ən zəif nöqtədən həyata keçirilib. Artilleriya dəstəyimiz də təmin edilməyib. Mövqelərin möhkəmləndirilməsi üçün göndərilən erməni piyadaları isə əmri yerinə yetirməkdən imtina ediblər. Düşmənin şəhəri ələ keçirmək təhlükəsi çox böyükdür."

Sentyabrın ilk günlərində şəhər uğrunda döyüşlər daha da qızışdı. Həlledici savaş isə sentyabrın 14-də axşam baş tutdu. Gecə saat 2-də başlanması nəzərdə tutulan hücum qarşısında təxminən 8 min türk əsgər və zabiti, 7 min nəfər də azərbaycanlı nizami-milis qüvvələri Bakı cəbhəsində hazır vəziyyətə gətirildi. "İrəli" əmri verilən kimi qoşunlar Heybət-Bakı dəmir yolu və Şubanı-Bakı yolu istiqamətlərindən hücuma keçdilər. Artıq gecə saat 3-də düşmənin birinci müdafiə xətti yarıldı. 14 saat şəhər uğrunda döyüş getdi. Saat 15.00-a qədər davam edən döyüşlərdə erməni və rus birləşmələrinin müqaviməti tamamilə qırıldı. Birləşmiş düşmən qüvvələrinin qərb cəbhəsinin erməni komandiri İranın Bakıdakı konsulu Saidol Vazere ilə birlikdə ağ bayraqlarla türk batalyonunun qərargahına gələrək şəhərin təslim olacağını bildirdi. Beləcə, böyük bir tarix yazıldı - şəhər işğaldan azad olundu.

Ötən əsrdən başlanan Azərbaycanla Türkiyənin dostluğu, qardaşlığı və birliyi bu gün də uğurla davam etməkdədir. Yüz il əvvəlki kimi bu dostluq yüksələn xətlə inkişaf edərək irəli gedir. Ulu öndər Heydər Əliyev bu birliyə, dostluğa böyük dəyər verərək çox uzaqgörənliklə: "Bir millət - iki dövlət" demişdir. Ümummilli liderin dediyi bu sözlər Türkiyə və Azərbaycan dostluğunu gözəl, dəqiq ifadə edən ən qiymətli fikirdir. Ötən il Bakının azad edilməsinin 100 illiyi münasibəti ilə keçirilən möhtəşəm parad, həm Azərbaycan Prezidenti İlham Əliyevin, həm də Türkiyə Prezidenti Rəcəb Tayib Ərdoğanın bu tədbirdəki çıxışları, dedikləri sözlər, səsləndirdiyi dəyərli fikirlər əbədi olaraq yaddaşımızda qalacaq. İnanırıq ki, bu görüşlər, bu çıxışlar, bu sözlər Azərbaycan-Türkiyə dostluğunu, qardaşlığını daimi, əbədi və sarsılmaz edəcəkdir.

**Vahid MƏHƏRRƏMOV**

# Bakıda NATO qiymətləndirilməsi təlimi keçirilib



*"Qaraheybət" Təlim Mərkəzində NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Proqramı çərçivəsində Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş Azərbaycan Ordusunun ƏİK kəşfiyyat bölüyünün 2-ci səviyyəli və Hərbi Hava Qüvvələrinin Mi-17 helikopter cütlüyünün 1-ci səviyyəli NATO qiymətləndirilməsi təlimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, kəşfiyyat bölüyünün qiymətləndirilməsi çoxmillətli qiymətləndiricilər qrupu tərəfindən həyata keçirilib və NATO-nun Quru Qoşunları Komandanlığını təmsil edən Müşahidə Heyəti tərəfindən izlənilib. Hərbi Hava Qüvvələrinə aid Mi-17 helikopter cütlüyü isə NATO-nun Hərbi Hava Qüvvələri Komandanlığının nümayəndələri tərəfindən qiymətləndirilib.



Təlimlərin keçirilməsində məqsəd NATO-nun Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş bölmələrin döyüş hazırlığının, fəaliyyətinin və təchizatının NATO standartlarına uyğunluğunun yoxlanılmasından ibarətdir.

Qeyd edək ki, bu təlimdə Azərbaycan Ordusu ilk dəfə olaraq ƏİK proqramı çərçivəsində quru qoşunları və hərbi hava qüvvələri bölmələrinin əməliyyatlar zamanı birgə fəaliyyətini praktiki olaraq icra edib.

AZƏRBAYCAN ORDUSU

# "Hərbiyyə"çilər "pusqu quran düşmən kəşfiyyatçılarına" qarşı vuruşub

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və "ASAN Könüllüləri" təşkilatının birgə layihəsi olan "Hərbiyyə-2019" düşərgəsinin beşinci günü gənc vətənpərvərlərin "Həyəcan" siqnalı ilə qaldırılması ilə başlanıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hamı bir nəfər kimi meydanda sıralanıb. Komandir "düşmənin təxribat törədərək texnika və canlı qüvvə ilə mövqeyimizə hücuma keçdiyini" bildirib. Bölgənin müdafiəçilərinə qoşulan hərbiyyəçilər də bir nəfər kimi şərti düşmənin qarşısını almaq məqsədilə ölüm-qalım savaşına yollanıblar.

Sonra bunun bir yoxlama məşqi olduğu nəzərə çatdırılıb və gənc vətənpərvərlərin ayıq-sayıqlığı, hər an döyüşə hazır olduqları yüksək qiymətləndirilib.

Səhər yeməyindən sonra ölkədə və dünyada baş verən mühüm hadisələr, ölkə rəhbərliyinin apardığı daxili və xarici siyasət haqqında düşərgə sakinlərinə məlumat verilib.

Sonra silahsız sıra hazırlığı üzrə məşğələ keçirilib.

Azərbaycanın Milli Qəhrəmanı polkovnik Şükür Həmidovla görüş də maraqlı olub.

Abdulla Qurbani hazırda cəbhə bölgəsində Vətənin keşiyində mərdliklə dayanan igid zabitimiz haqqında, onun şücaətləri barədə geniş söhbət açıb. Hələ iyirmi il əvvəl Naxçıvanda, 2016-cı ildə isə Lələtəpə istiqamətində əfsanəvi igidliklər göstərdiyini qeyd edib. Onu şəxsi heyətə nümunə göstərib. "Qəhrəmanlıq əbədi həyat qazandırır, həyatda qəhrəmanlığa həmişə yer var", - deyən A.Qurbani gənc vətənpərvərləri Şükür Həmidov kimi qəhrəman olmağa çağırıb.



Sonra gənclər gəzinti adı ilə düşərgədən çıxıblar. Bayraq və şüarlarla bəzədilmiş avtomobil karvanı Gəncə İdeoloji və Mədəniyyət Mərkəzinin səyyar səsyayma stansiyasının səsləndirdiyi Xalq artisti Mübariz Tağıyevin "Qalx, ulu torpaq" mahnısının sədaları altında kəndlərdən keçdikcə yerli əhali, uşaqlar onları alqışlayıblar.

Bir azdan "Hərbiyyə-2019" hərbi vətənpərvərlik düşərgəsinin gənc vətənpərvərlərini aparan avtomobil karvanı yol döngəsində "xüsusi təyinatlı kəşfiyyatçı qrupunun pusqusuna" düşüblər. Kəşfiyyatçılar ağaclardan, əvvəlcədən qazılmış çalalardan və daldalanacaqlardan çıxaraq kolonu mühasirəyə alıb və onları girov götürməyə səy göstəriblər.

Lakin könüllülər müqavimət göstərərək, hətta əli silahlı kəşfiyyatçılarla əlbəyaxa döyüşə çıxıblar. Təlimin döyüş şəraitinə maksimal uyğun olması məqsədilə silahlar işə düşüb, partlayışlar törədilib və həyəcanlı anlar yaşanıb. Hərbiyyəçilər sonacan özlərini müdafiə edib, bayraqlarını mərdliklə qoruyublar. Qızlar da oğlanlardan geri qalmayıb, hər kəs bu pusqudan sağ-salamat qurtarmağa çalışıb. Çəkilişlər aparan operatorlar göründükdə könüllülərin bunun bir oyun olduğuna şübhələri qalmayıb.

Yaşıl talada general-mayor Mayis Bərxudarov hərbiyyəçiləri salamlayıb, "pusqudan" uğurla çıxdıqlarına görə onlara təşəkkür edib.

Sonra kapitan Rəşad Vəliyev kəşfiyyat qrupları tərəfindən "düşmən obyektinə basqın" nümunəvi məşğələsini təqdim edib. Yenə də meşəni mərmi-güllə səsləri, tüstü-duman bürüyüb.

Artıq düşmən obyektinin mühafizəçiləri zərərsizləşdirilib, kəşfiyyatçılar obyektə daxil olaraq, bir nəfəri əsir götürüb, qarşılarına qoyulmuş tapşırığı layiqincə yerinə yetiriblər. Yağışdan sonra ətrafın palçıqlı olmasına baxmayaraq kəşfiyyatçılar öz çeviklikləri ilə könüllüləri, könüllülər isə öz məharətləri ilə peşəkarları heyrətə gətiriblər.

Meşənin dərinliyində yerləşən şərti yaşayış məntəqəsində xüsusi təyinatlı qrupların fəaliyyəti üzrə məşğələ də böyük maraq oyadıb.

Əvvəlcə kapitan İlkin Ağazadə könüllülər qarşısında çıxış edərək yaşayış məntəqəsində xüsusi təyinatlı qrupların fəaliyyətinin səciyyəvi xüsusiyyətlərini izah edərək bildirib ki, bu döyüş növü digərlərindən obyektlərin pəncərə və küncələrinin çoxluğuna görə bir çox çətinliklər yaradır. Buna baxmayaraq xüsusi təyinatlılar obyektlərdə olan düşmənin müqavimətini qıraraq obyektləri ələ keçirirlər.

Sonra kapitan İ.Ağazadə kəşfiyyatçı snayperlərin və kəşfiyyatçı əsgərlərin iştirakçılarla birlikdə müxtəlif şəraitlərdə maskalanmasını təmin edib.

Kəşfiyyat silah, optik-elektron cihazlar, mini pilotsuz uçuş aparatları, dağ ləvazimatları və xüsusi kəşfiyyatçı geyimləri sərgisinin açılışı olub. Burada yüzdən çox kəşfiyyat texniki ləvazimatları təqdim olunub.

Kapitan Həmid Cəfərli, kapitan Elşən Dadaşov, leytenant Emin Abdullayev tərəfindən hər bir kəşfiyyat texniki vasitəsi haqqında ətraflı məlumat verilib.

Meşədə təşkil olunmuş nahar yeməyindən sonra iştirakçılar istirahət edib, bura dəvət olunmuş bədii özfəaliyyət kollektivinin çıxışına baxıblar.

Sonra iştirakçılar kompasın köməyi ilə hərəkət və səmtimüəyyənetmə üzrə idman yarışının qaydaları ilə tanış olub və tapşırıqları praktiki icra ediblər. Hər komandadan altı oğlan və iki qız yarışlara qatılıb. Xəritələr paylandıqdan sonra komandalar start nöqtəsinə hərəkət edib, kompasın köməyi ilə xəritəni istiqamətləndirib, relyefə və yerli əlamətlərə əsasən birinci nəzarət nöqtəsini tapıblar.



Sonra komandalar digər nəzarət nöqtələrini də xəritədə qeyd olunmuş ardıcıllıqla taparaq finişə gəliblər. Onlar xəritədə göstərilən marşrut üzrə hərəkət etdikdə kiçik çaylar, keçilməz kolluqlar və bataqlıqlarla qarşılaşsalar da, mənəələri inamla dəf edərək finiş nöqtəsinə vaxtında çatıblar.

Yarışın katibləri mayor Taleh Eyyubov və kapitan Asif Cəfərov yarışın gedişatını diqqətlə izləyib, nəzarət nöqtəsini ardıcıllıqla keçərək finişə gələn komandaları vaxtlarına görə qiymətləndirib və qalibləri elan ediblər.

Bu yarışlarda "Qubadlı" komandası birinci, "Xocalı", "Ağdərə" komandaları ikinci, "Xocavənd" və "Cəbrayıl" komandaları isə üçüncü yerləri öz aralarında bölüşüblər.

Yarışdan qalib kimi qayıdan gənc vətənpərvərlər bir neçə gün öncə bölgənin müdafiəsində mərdliklə dayanan hərbi qulluqçular tərəfindən ucaldılan Şəhidlər abidəsini ziyarət edib və Şəhidlər bulağından su içiblər.

Anım mərasimindən öncə Şəhidlər abidəsinin qarşısına qərənfillər düzülüb, şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Tədbirdə çıxış edən Abdulla Qurbani ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğını, şəhidlərin ölməzliyini, onların xatirəsinə abidələr ucaldıldığını, adlarının əbədiləşdirildiyini qeyd edib və bu istiqamətdə həyata keçirilən təşəbbüsləri yüksək qiymətləndirib.

Polkovnik Elşad Əbilov da çıxış edərək bildirib ki, təkcə son iki ildə hərbçilər tərəfindən şəhid olan qəhrəman oğulların xatirəsinə neçə-neçə bulaq inşa edilib. "Füzuli rayonunun Alxanlı kəndində erməni vəhşiliyinin qurbanı olan məsum Zəhranın qətlə yetirildiyi yerdə uşaq parkı yaradılıb. Bir neçə gün öncə təmas xəttinə yaxın kəndin ərazisində şəhid Orxan Həmidovun xatirəsinə inşa edilmiş bulağın açılışında şəxsən Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti iştirak ediblər. Bu istiqamətdə işlər davam etdiriləcək".

Polkovnik E.Əbilov anım mərasiminin iştirakçılarının nəzərinə onu da çatdırıb ki, hərbçilər mütəmadi olaraq uşaq evlərinə baş çəkirlər. "İki gün öncə bir qrup zabit Şəki şəhərindəki uşaq evinin qonağı olub, yüzdən çox uşağa yeni dərs ili ərəfəsində tədris ləvazimatları, kitablar, geyimlər və digər ləvazimatlar hədiyyə edilib. Ad günü olan üç nəfər uşaq isə komandanlıq adından qiymətli hədiyyələrlə mükafatlandırılıb."

Tədbirdə çıxış edən Qarabağ müharibəsi qaziləri, hərbi qulluqçular, eləcə də ictimaiyyətin nümayəndələri bir daha bəyan ediblər ki, Ali Baş Komandanın hər bir əmrinə hər an hazırdırlar.

Gənc vətənpərvərlər "Şəhidlər ölməz, Vətən bölünməz!" nidaları altında düşərgəyə qayıdıblar.

Növbəti gün düşərgənin bağlanışına həsr olunmuş təntənəli mərasim keçiriləcək, qaliblər mükafatlandırılacaqlar.

# "Hərbiyyə-2019" hərbi vətənpərvərlik düşərgəsinin bağlanışına həsr olunmuş təntənəli mərasim keçirilib



*Cəbhə bölgəsində yerləşən hərbi birləşmədə Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və "ASAN Könüllüləri" təşkilatının birgə təşkilatçılığı ilə keçirilən "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsinin başa çatması münasibətilə təntənəli mərasim keçirilib.*

Əvvəlcə gənc vətənpərvərlərdən ibarət "Qubadlı", "Cəbrayıl", "Xocalı", "Xocavənd" və "Ağdərə" komandaları sıra meydanına dəvət ediliblər.

Düşərgənin fəaliyyətinə məsul zabit, Azərbaycanın Milli Qəhrəmanı polkovnik Şükür Həmidov iştirakçıların təntənəli bağlanış mərasiminə hazır olduqları barədə komandanlığa raport verib.

General-mayor Mayis Bərxudarov gənc vətənpərvərləri salamlayaraq, düşərgənin uğurla başa çatması münasibətilə onları təbrik edib. Azərbaycan Respublikasının Dövlət himni ifa olunub.

Prezidentin fərdi təqaüdçüsü, Əməkdar İncəsənət xadimi, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani çıxış edərək layihənin aktuallığından, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində, orduya hazırlanmasında, hərbi biliklərə yiyələnməsində, eləcə də onlarda hərbi peşələrə maraq oyadılmasında müstəsna əhəmiyyətindən danışıb və bu istiqamətdə "ASAN xidmət"in Müdafiə Nazirliyi ilə birgə fəaliyyətini yüksək qiymətləndirib.

Qeyd olunub ki, hər iki qurum tərəfindən bu işə xüsusi önəm verilir və bu istiqamətdə fəaliyyətin daha da genişlənməsinə səy göstərirlər.

Bu il Gədəbəy və Beyləqan rayonlarında təşkil olunan hərbi vətənpərvərlik düşərgələrində respublikamızın 20-dən çox bölgəsini təmsil edən 200 nəfərlik "ASAN" könüllüsü iştirak edib. Əvvəlki düşərgələrdən fərqli olaraq builki düşərgənin proqramı daha geniş, daha maraqlı və maksimum döyüş şəraitinə uyğunlaşdırılıb. İştirakçılar özlərini nəinki təlimlərdə, həm də döyüş meydanlarında olduğu kimi hiss edib, əsgər həyatının heç də hamar olmadığını görüb, ekstremal vəziyyətlərdən çıxmağın yollarını öyrənib, fiziki, hərbi hazırlıq keçib, yüksək əxlaqi, mənəvi-iradi keyfiyyətlərə malik olmaq üçün sınaqlardan müvəffəqiyyətlə çıxıblar.

"ASAN xidmət" rəhbərliyinin müraciətinə əsasən, Müdafiə Nazirliyi bu təşəbbüsü yüksək qiymətləndirib və hər cür şərait yaradıb. Bunun məntiqi nəticəsidir ki, həm Gədəbəy rayonunda, həm də Beyləqanda qarşıya qoyulmuş missiya uğurla yerinə yetirilib.

Azərbaycanın Milli Qəhrəmanı polkovnik Ş.Həmidov "Hərbiyyə" düşərgəsinin bir həftəlik fəaliyyəti haqqında məruzə edərək gənclərə müraciətlə deyib: "Bir həftə davam edən düşərgə həyatı uzun müddət xatirələrdən silinməyəcək. Siz əsl əsgər həyatı yaşadınız. Təbiətin şıltaqlıqlarına baxmayaraq yağışda, yağmurda bütün çətinliklərə sinə gərdiniz, yarış və müsabiqələrdən müvəffəqiyyətlə çıxdınız, məşğələlərdə praktiki təlimlər aparan hərbi qulluqçularımızın ümidlərini doğrultdunuz. Hərbi birləşmənin komandanlığı bir daha əmin oldu ki, Azərbaycanın gözəl gələcəyi var. Həm mənəvi, əxlaqi, həm də fiziki cəhətdən vətənpərvər, mərd, mübariz gənclərimiz yetişir. Onlar Əli Baş Komandanın əmrlərini gözləyirlər, Vətən uğrunda, torpaq uğrunda canlarından belə keçməyə hazırdırlar".

Milli Qəhrəman layihə barədə fikirlərini bildirərək deyib: "Bu, çox gözəl bir layihədir, böyük vətənpərvərlik təşəbbüsüdür. Müharibə şəraitində yaşayan bir ölkənin hər bir gəncindən bu gün barıt qoxusu gəlməlidir. Hər bir əli silah tutan vətəndaşımız döyüşə hazır olmalı, əmr gözləməlidir. Şəxsən mən inandım ki, gəncliyimiz, doğrudan da, döyüşlərə atılmaq, torpaqlarımızı azad etmək arzusu ilə yaşayır. Bu isə çox vacibdir".

Düşərgənin fəaliyyətini istiqamətləndirən, yarış və müsabiqələrə rəhbərlik edən polkovnik Ş.Həmidov vurğulayıb: "Bütün komandalar mənim nəzərimdə qalibdirlər. Hansısa komanda birinci yeri, hansısa ikinci və üçüncü yeri bölüşəcək. Ancaq ən böyük qələbəmiz odur ki, gənclərimiz çətin və şərəfli əsgər həyatını yaşadılar. Hərbi texnika, silah-sursat və digər avadanlıqlarla tanış oldular. Güllə, mərmi səslərini eşitdilər. Mina partlayışının şahidi oldular. Silahlardan atəş açdılar. Hətta meşədə kəşfiyyatçıların pusqusuna da tuş gəldilər".

Milli Qəhrəman gənc vətənpərvərlərin qorxmazlığından, cəsarətindən də danışıb. Onlara müraciətlə deyib: "Heç nə sizi qorxutmadı. Geri çəkilmədiniz. Bataqlıqlardan, palçıqlı yollardan, keçilməz kolluqlardan keçərək qarşıya qoyulmuş tapşırıqları yerinə yetirdiniz. Komandanın bayrağını əldən vermədiniz. Hədəfləri düzgün nişan aldınız. Təlim mərkəzlərində sanki oda, atəşə dönmüşdünüz. Bu, hər birimizi sevindirirdi. Hətta mühəndis-istehkamçılara qoşulub partlayışlar etdiniz, dağıntılar törətdiniz. Mühəndislərin qurduqları körpüdən keçərkən mən elə təsəvvür edirdim ki, artıq Şuşaya, Laçına, Kəlbəcərə, Qubadlıya, Xocavəndə və digər işğal altında olan doğma torpaqlarımıza böyük qayıdış başlanıb. Bu, məni son dərəcə sevindirdi. Biz arzularımıza çatacağıq. Ali Baş Komandanımızın rəhbərliyi altında Aprel döyüşlərində olduğu kimi xalqımıza, millətimizə Böyük Qələbənin sevincini yaşadacağıq".



General-mayor Mayis Bərxudarov düşərgə iştirakçılarını, təşkilatçıları bir daha təbrik edib, onlara ən səmimi arzularını bildirib. Düşərgənin fəaliyyətində yardımçı olan hər kəsə təşəkkür edib. Kütləvi informasiya vasitələrinin, xüsusilə Azərbaycan Dövlət Televiziyasının, "ASAN" radionun nümayəndələrinə düşərgə həyatını operativ, dolğunluğu ilə işıqlandırdıqlarına görə minnətdarlığını bildirib. Məşğələ və təlimləri, yarış və müsabiqələri, asudə vaxt və mədəni-kütləvi tədbirləri yüksək səviyyədə təşkil edən hərbi qulluqçulara, kəşfiyyatçı, tankçı, artilleriyaçı, rabitəçilərə və iştirakçıların ləziz əsgər yeməkləri ilə təmin edənlərə "Sağ ol" deyib.

General-mayor M.Bərxudarov "Hərbiyyə"çilərlə Şuşada, Xankəndidə, Qubadlıda və işğal altında olan digər torpaqlarımızda görüşmək, döyüşlər getmiş əraziləri birlikdə ziyarət etmək arzusunda olduğunu da bildirib. "Bir neçə gündən sonra yeni tədris ili başlanır. Sizin çoxunuz tələbəsiniz və ali məktəblər yolunuzu gözləyir. Siz düşərgədə olduğu kimi, ali məktəblərdə də nümunəvi nizam-intizamınızla, dərsə davamiyyətinizlə, əla qiymətlərinizlə müəllimlərinizi və valideynlərinizi, eləcə də biz Vətən keşikçilərini sevindirəcəksiniz, ümidləri doğruldacaqsınız. Buna heç bir şübhəmiz yoxdur. Bir daha sizi təbrik edir və uğurlu yol arzulayıram", - general çıxışının sonunda deyib.

Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinə xüsusi önəm verən dövlətimizin başçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident, Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirib. O, bu kimi möhtəşəm layihələrin təşkilində göstərdiyi dəstəyə görə Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin rəhbərliyinə təşəkkür edib.



Qarabağ müharibəsinin qazisi, igid kəşfiyyatçı Aqil Əhmədov gənc vətənpərvərlərlə bir yerdə yaşadığı düşərgə həyatını ömrünün ən xoş günləri olduğunu nəzərə çatdırıb.

"ASAN Könüllüləri" təşkilatının sədri Səbinə Cabarova çıxış edərək, düşərgədə göstərilən xidmətə, diqqət və qayğıya görə Müdafiə Nazirliyinin rəhbərliyinə bütün iştirakçılar adından təşəkkürünü bildirib.

Qalib komandalara təşkilatçı qurumların təsis etdiyi kuboklar təqdim edilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin və hərbi birləşmə komandirinin, Xocavənd və Beyləqan rayon İcra hakimiyyətləri başçılarının hədiyyələri düşərgə iştirakçılarına təqdim olunub.

Düşərgədə keçirilən yarış və müsabiqələrdə birinci yeri tutan "Ağdərə" komandası "Hərbiyyə-2019" hərbi vətənpərvərlik düşərgəsinin bayrağını endirib.

Bütün iştirakçılar və qonaqlar birlikdə xatirə şəkli çəkdiriblər.

"Hərbiyyə-2019" hərbi vətənpərvərlik düşərgəsinin bağlanışına həsr olunmuş təntənəli mərasim gənc vətənpərvərlərin tribuna önündən fəxri keçidi ilə başa çatıb.

*Tarix boyu elmə, biliyə yiyələnmək şərəfli iş hesab olunub. Elmin, təhsilin, bütövlükdə hər bir xalqın maariflənməsi nəticəsində cəmiyyətdə savadlı, bilikli, geniş dünyagörüşlü, əxlaqlı ölkənin gələcəyinə etibarlı təminatçı olan əsl vətəndaş yetişir.*

*Təhsil millətin gələcəyidir*

# Hərbi təhsil ordu quruculuğunun təməl daşıdır




Azərbaycanın gələcək inkişafının elm və təhsillə bağlı olması strategiyasının təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər ölkəmizə rəhbərliyinin həm sovet, həm də müstəqillikdən sonrakı dönəmində elmin, təhsilin əhəmiyyətini xüsusi vurğulayaraq, xalqımızın parlaq, işıqlı gələcəyini hər iki sahənin inkişafında gördü.

Müstəqil Azərbaycanda dövlət quruculuğunu əzmlə həyata keçirməklə bərabər, onun ideya-siyasi əsaslarını, milli ideologiyamızın prinsiplərini müəyyən edən Ümummilli Liderimiz, heç şübhəsiz, təhsil sahəsinin qarşısında duran vəzifələri də öz yüksək təcrübəsinə əsaslanaraq uğurla həyata keçirdi. Ulu öndər Heydər Əliyev təhsilin yerini və rolunu müəyyənləşdirərək deyirdi: "Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır".

Bu gün xalqımızın ümummilli lideri Heydər Əliyevin başladığı böyük təhsil islahatları ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illərdə Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Prezident İlham Əliyevin qayğısı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr Ulu Öndərin təməlini qoyduğu təhsil siyasətinin uğurlu davamının göstəricisidir. Elm və təhsil məsələləri gələcək inkişaf yolunun əsas hərəkətverici qüvvələri olmaqla Azərbaycan dövlətçiliyinin diqqət mərkəzindədir. Ölkəmizin, cəmiyyətimizin inkişafında böyük rol oynayan elm və təhsil sahəsində böyük nailiyyətlər qazanılıb. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, ölkəmizdə təhsil sisteminin bütün pillələri üzrə dövlət proqramları uğurla həyata keçirilir. Ötən dövr ərzində Azərbaycan təhsil sisteminin Avropa təhsil məkanına uyğun qurulması istiqamətində mühüm işlər görülərək, təhsil haqqında yeni qanun qəbul edilib.

15 sentyabrın respublikamızda Bilik Günü kimi qeyd edilməsi tarixindən artıq 15 il keçir. Məlumdur ki, Azərbaycanda Bilik Günü məktəblərdə dərslərin başlandığı gün keçirilir. 2004-cü ilə qədər dərslər sentyabrın 1-də başlanırdı. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 avqust 2004-cü il tarixində imzaladığı fərmanla eləqədar olaraq, ölkəmizin bütün təhsil müəssisələrində dərslərin sentyabrın 15-də başlanması qərara alınıb və beləliklə, həmin gün Bilik Günü elan edilib.

Təhsilin məqsəd və vəzifələri təkcə sistemli biliklər öyrədilməsi ilə məhdudlaşmır. Yetişən nəslin cəmiyyətin bir üzvü kimi hazırlanması ictimai biliklərin öyrədilməsi ilə yanaşı, fəal ictimai təcrübə də tələb edir. Məktəb təkcə şagirdlərə biliklər aşılamaq üçün deyil, həm də onu həyata hazırlamaq üçündür. Orta məktəb hər bir uşağı müstəqil həyata hazırlayır və gələcəkdə ölkəmizə layiqli vətəndaş kimi yetişməsində mühüm rol oynayır. Ali məktəb isə onu peşəkar kimi müəyyən sahənin mütəxəssisi olaraq yetişdirir. Axırıncı mərhələdə həyata hazırlanmaq gənclərin ali məktəbi bitirdikdən sonra çalışacaqları istehsal və ya xidmət müəssisələrindəki real şəraitə və tələblərə uyğun surətdə əməli vərdişlərin mənimsənilməsini nəzərdə tutur. Eyni zamanda tələbələrin həm də bir vətəndaş kimi yetişməsi üçün ali məktəb sadəcə biliklər aşılamaqla kifayətlənməyərək, ictimai həyatın fəal iştirakçısına çevrilirlər.

Son illərdə respublikamızın təhsil sistemində dəyişikliklər edilərək, müasir tipli kolleclər, liseylər açılıb, ali məktəblərdə bir sıra yeni ixtisaslar üzrə kadr hazırlığına başlanılıb. Azərbaycan təhsilində ən uğurlu nəticələrdən biri məktəb tikintisinin geniş vüsət almasıdır. 2003-cü ildən bu günümüzədək ölkəmizdə yüzlərlə müasir məktəb binası tikilib, o cümlədən bir sıra məktəblər üçün əlavə korpuslar inşa olunub, əsaslı təmir həyata keçirilib. Yeni məktəblərin tikintisi, əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla təminatı, infrastrukturun müasirləşməsi təşkil olunub.

Dövlət quruculuğunda əsas prioritetlərdən sayılan ordu quruculuğunda hərbi təhsil sistemi əsas və aparıcı rol oynayır. Hərbi təhsildən danışarkən, ilk növbədə Ulu Öndərin müasir Azərbaycanın ordu quruculuğuna verdiyi əvəzsiz töhfələri yada düşür.

Hərbi təhsil ordu quruculuğunun təməl daşıdır. "Mən istəyirdim ki, bizim zabitlər korpusumuz olsun" deyən ümummilli liderimiz Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi dövrlərdə milli zabit kadrlarının hazırlığı məsələlərini daim önə çəkirdi. Ulu Öndər 1971-ci ildə böyük səylər nəticəsində Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin - görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan Hərbi Liseyin yaradılmasına və eyni zamanda azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, keçmiş SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına da nail oldu. Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra milli hərbi kadr hazırlığı üçün zəruri bazanın ən yüksək səviyyədə təşkilini həyata keçirdi. Əsası C.Naxçıvanski adına Hərbi Liseylə qoyulan hərbi təhsil müəssisələrimizin sayı ali hərbi təhsil ocaqları hesabına daha da genişləndi.

1993-cü ildə ölkə tarixində ilk dəfə olaraq Hərbi Hava Qüvvələrinin tərkibində Uçuş Hazırlığının Təlim Mərkəzi yaradıldı. Sonradan bu mərkəz Ümummilli Liderimizin sərəncamına əsasən, Azərbaycan Respublikası Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən və ali hərbi təhsil müəssisəsi olan Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı.

1996-cı ildə Bakı Ali Hərbi Dənizçilik Məktəbinin bazasında Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi, Bakı Ali Hərbi Ümumqoşun Komandirləri Məktəbinin bazasında Azərbaycan Ali Hərbi Məktəbi yaradıldı. 1998-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan Muxtar Respublikasında filialı açıldı. 2004-cü ildə Naxçıvanda fəaliyyət göstərən Hərbi Liseyə ümummilli liderimiz Heydər Əliyevin adı verildi.

Ulu öndər Heydər Əliyevin 1999-cu ilin 10 fevral tarixli fərmanı ilə Silahlı Qüvvələrin Hərbi Akademiyası və 20 avqust 2001-ci il fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Təlim və Tədris Mərkəzi təşkil edildi. Eyni zamanda Təlim və Tədris Mərkəzinin nəzdində Qaraheybət Təlim Mərkəzi fəaliyyət göstərir.

Bu gün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin orduya diqqət və qayğısı sayəsində hərbi təhsilin maddi-texniki bazası ən müasir və dünya standartlarına uyğun qurularaq, gündən-günə möhkəmlənir.

Təhsil millətin gələcəyidir. Bu günün təhsili cəmiyyətin sabahına xidmət edir, ictimai tərəqqini və inkişaf strategiyasını müəyyənləşdirir. Bütün ölkə, cəmiyyət miqyasında həyata keçirilən sosial-iqtisadi və ideya-siyasi islahatların elmi-nəzəri əsasları işlənib hazırlandıqca, təhsilin qarşısında duran əsas vəzifələr və onların yerinə yetirilməsinin yolları da getdikcə daha çox aydın olur.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# "N" hərbi hissəsində mədəni-kütləvi tədbir keçirildi



*Müdafiə Nazirliyinin və Bakı şəhər Mədəniyyət Baş İdarəsinin birgə təşkilatçılığı ilə düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin asudə vaxtının səmərəli təşkili məqsədilə mədəni-kütləvi tədbir keçirildi.*

Tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan polkovnik-leytenant Rasim Manafov bildirdi ki, ordu sıralarında xidmət edənlərin asudə vaxtının səmərəli təşkili üçün keçirilən bu cür tədbirlər şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığına müsbət təsir göstərir. "Düşmənlə təmas xəttində xidmət edənlərin asudə vaxtlarının maraqlı təşkil olunması komandir heyətinin qarşısında duran əsas vəzifələrdən biridir. Hərbi qulluqçular təlimlərdə, döyüş növbətçiliyi zamanı qazandıqları gərginlikdən bu cür tədbirlərdə istirahət edərək azad olurlar. Mənəvi-psixoloji vəziyyəti yüksək səviyyədə olan hərbi qulluqçu xidmətini daha ayıq və gümrah davam etdirir. Torpaqlarımızın müdafiəsində duran oğullarımızın xidmətlərini yüksək səviyyədə təşkil etmələri üçün hər cür şərait yaradılıb. Onlar da çalışırlar ki, xidmətlərini nizamnamə çərçivəsində təşkil etsinlər. Şəxsi heyətin vətənpərvərlik hissinin yüksəldilməsi naminə təşkil olunmuş tədbirin ərsəyə gəlməsində əməyi keçən hər bir kəsə minnətdarlığımı bildirirəm."



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov çıxış edərək dedi ki, ordumuz xalqımızın qürur yeri, dayağıdır. "Düşmənlə təmas xəttində xidmət edən əsgərlərimizin mədəni asudə vaxtının səmərəli təşkil olunması hər bir Azərbaycan vətəndaşının maraq dairəsində olmalıdır. Çünki onlar çətin və şərəfli vəzifənin öhdəsindən layiqincə gəlirlər. Hər an düşmənin təxribatlarının qarşısını alaraq, ona layiqli cavab verməyə hazırdırlar. Unutmamalıyıq ki, bu gün ana və bacılarımız evlərində rahat yata bilirlərsə, bu cəsur və mərd əsgərlərimizin sayəsindədir."

Zabit, həmçinin onu da bildirdi ki, bu cür tədbirlərin keçirilməsinin şəxsi heyətin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında və bu hissin möhkəmləndirilməsində rolu əvəzsizdir.

Sonra mədəni-kütləvi tədbirin bədii hissəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin yaradıcı kollektivi əsgərlər qarşısında rəngarəng konsert proqramı ilə çıxış etdilər.

Sonda tədbirin təşkilində fəal iştirak edənlərə hərbi hissə komandiri adından fəxri fərmanlar təqdim olundu.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# "Hərbi dənizçilərimiz hər zaman qalib olmağa hazırdırlar"

*Azərbaycanın Hərbi Dəniz Qüvvələri imkanlarına görə Xəzər dənizində ən güclü donanmalar sırasındadır. Tərkibinə bir neçə gəmilər divizonu daxil olan HDQ əsasən suüstü gəmilər briqadasından ibarətdir. HDQ-nin sərəncamında onlarla müxtəlif tipli və təyinatlı gəmilər var. Hərbi dənizçilərimiz dəfələrlə beynəlxalq təlimlərlərdə və yarışlarda iştirak ediblər. Belə yarışlardan biri də 2015-ci ildən Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Serqey Şoyqunun təşəbbüsü ilə keçirilən "Beynəlxalq Ordu Oyunları"dır. Bu yarışlarda hərbçilərimiz xalqımızı, dövlətimizi, ordumuzu yüksək səviyyədə təmsil edir, digər ölkələrin komandaları ilə qarşılıqlı görüşlər, ziyafətlər, mədəni-kütləvi və digər tədbirlər keçirirlər. Komandalarımızın yarışlarda iştirakı müşahidəçilər və mütəxəssislər tərəfindən çox yüksək qiymətləndirilir. Bu cür tədbirlər hərbi əməkdaşlığın, hərbçilər arasında dostluğun möhkəmləndirilməsinə, peşəkarlığın daha da artırılmasına xidmət edir.*





"Beynəlxalq Ordu Oyunları" çərçivəsində keçirilən "Dəniz Kuboku" müsabiqəsində də komandamız bir çox uğurlara imza atıb. Bu müsabiqə üçüncü ildir ki, Xəzər dənizinin Azərbaycana məxsus ərazi sularında keçirilir. "Dəniz Kuboku" müsabiqəsi ölkələr arasında qarşılıqlı əlaqələrin, əməkdaşlığın daha da güclənməsinə öz töhfəsini verir. Yarışlar hər kəsin yaddaşında silinməz iz buraxır, qonaqlar Azərbaycandan xoş təəssüratlarla ayrılırlar. Bu yarışlarda komandamız ordumuzu layiqincə təmsil edir. Hər il olduğu kimi, "Dəniz Kuboku-2019" müsaqibəsinin şəffaf və ən yüksək səviyyədə keçirilməsi üçün dəniz poliqonlarında və təlim-məşq komplekslərində hər cür şərait yaradılmışdı. Bu cür diqqətin və qayğının nəticəsidir ki, hərbi dənizçilərimiz bu il digər komandaları üstələyərək, birinciliyi əldə etdilər. Dənizçilərimizin yarışla bağlı təəssüratlarını öyrənmək üçün onlarla söhbət etdik.

İlk həmsöhbətim **3-cü dərəcəli kapitan İlqar Əlimənmədov** oldu. Zabit bildirdi ki, yarış çərçivəsində iştirakçı dövlətlərin Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti arasında gərgin mübarizə gedirdi. "Müsabiqənin gedişatına, şəffaflığa, ədalətlilik prinsipinə ciddi riayət olunurdu. Qeyd etmək istəyirəm ki, "Dəniz Kuboku-2019" müsabiqəsində Azərbaycan komandası digər iştirakçı komandaları geridə qoyaraq, birinciliyi əldə etdi. Müsabiqədə iştirak edən hər bir komandanın özünəməxsus yüksək döyüş hazırlığı var idi. Buna baxmayaraq, hərbi dənizçilərimiz tam qələbə əldə edərək, qalib oldular.

Yarışlar üç mərhələdə keçirildi. "Dəniz Kuboku-2019"-da hərbi dənizçilər "Artilleriya atışlarının yerinə yetirilməsi", "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı" və "Dəniz hazırlığı" üzrə mərhələlərdə güclərini sınadılar. "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı" mərhələsinin məqsədi, qəzaya uğrayarkən gəmiyə kənardan daxil olan suyun qarşısının alınmasıdır. Burada şəxsi heyətin bilik, bacarıq və praktiki vərdişləri əsas amillərdən biridir. Yəni, qəza-xilasetmə əmlakından istifadə etmə bacarığı yüksək olmalıdır ki, şəxsi heyət qəzaya uğrayan gəmiyə vaxtında müdaxilə etmə iqtidarında olsun. Xilasetmə vasitələrindən istifadə isə o deməkdir ki, şəxsi heyət hidro-kombinezonları geyinərək, xilasedici sala qədər üzür, sala əyləşərək, onu avar vasitəsi ilə çəkib körpüyə yan alır. "Artilleriya atışlarının yerinə yetirilməsi" mərhələsi isə üç hissədən ibarət idi. Birinci mərhələdə hərbi dənizçilər üzən minaya artilleriya atışını, ikinci mərhələdə kiçik ölçülü dəniz hədəfinə artilleriya atışını, üçüncü mərhələdə isə hava hədəflərinə artilleriya atışını yerinə yetirdilər. Xüsusi ilə vurğulamaq istəyirəm ki, üzən minaya artilleriya atışı mərhələsində hərbi dənizçilərimiz tərəfindən yüksək nəticələr əldə olundu. Kiçik ölçülü dəniz hədəfi üzrə artilleriya atışında komandamız ikinci yerdə qərarlaşdı. Hava hədəfinə atışlar zamanı isə iştirakçı komandaların icra edə bilmədiklərini bizim komandamızın dənizçiləri müvəffəqiyyətlə yerinə yetirib, hədəfi məhv etdilər. Bütün mərhələləri uğurla başa vuran komandamız



"Dəniz kuboku-2019" müsabiqəsinin qalibi oldu. Qələbə yalnız Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətində deyil, yarışmanı izləyən hər bir Azərbaycan vətəndaşında ruh yüksəkliyi yaratdı."

- Qalibiyyət istənilən şəxsdə özünə güvən və növbəti qələbələrə ümid yaradır, - deyə **3-cü dərəcəli kapitan İlhami Quliyev** söhbətə başladı. - "Dəniz Kuboku" müsabiqəsi dostluq, qardaşlıq, qarşılıqlı anlaşma şəraitində keçdi və bütün iştirakçı dövlətlərin böyük marağına səbəb oldu. Dostluq şəraitində keçirilən müsabiqədə isə dostluq qalib gəldi. Buna baxmayaraq birinciliyi əldə etdikdə, şəxsi heyətimlə hər zaman olduğu kimi, bir daha fəxr etdim, qürur hissi duydum. Bu yarışda əsas texnika deyil, şəxsi heyətin peşəkarlığı böyük rol oynadı. Yarışa hazırlıq zamanı qarşımıza qoyulan məqsəd, birinci olmaq idi. Bunun üçün mütəmadi olaraq məşqlər keçir, ötən illər-



də əldə etdiyimiz təcrübəmizi daha da təkmilləşdirirdik. Bunun nəticəsidir ki, biz digər ölkələrin komandalarından yaxşı çıxış etdik. Çalışacağıq ki, gələn il keçiriləcək "Dəniz Kuboku-2020" müsabiqəsində də ölkəmizi layiqincə təmsil edib, qalib olaq.

**3-cü dərəcəli kapitan Vadim İsmayılov** da bildirdi ki, hərbi dənizçilərimiz öz güclərini yarış meydanında sınayaraq, yarışın qalibi oldular. "Bu yarışlardan ən böyük qazancımız Xəzəryanı ölkələrin hərbi dənizçilərinin bir-birini yaxından tanıması, təcrübə mübadiləsi, dostluq və qardaşlıq mühitinin yaranması oldu. İştirakçı ölkələrin hərbçiləri Azərbaycana səfəri zamanı ölkəmizin tarixi, zəngin mədəniyyəti, ləziz mətbəxi və adət-ənənələri ilə yaxından tanış oldular. Müsabiqəyə gəlincə, çox ciddi hazırlıq prosesi keçmişdik. Uğurlarımız təsadüfi deyildi. Müsabiqəyə həm fiziki, həm nəzəri, həm də psixoloji cəhətdən hazırlaşmışdıq. Bir sözlə, bütün diqqətimizi bu yarışa yönəltmişdik. Komandamız "Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsinin qalibi oldu. Yarış heç vaxt həyəcansız ola bilməz. Komandamızın hər bir üzvü məsuliyyətli idi. Dənizçilərimiz çalışırdılar ki, heç bir səhvə yol verməsinlər. Bu müsabiqədə cüzi diqqətsizlik uğursuzluqla nəticələnə bilərdi. Hər kəs qalib olacağımıza inanırdı. Sevinirəm ki, bizə olan inamı və etimadı doğrultduq".

**Baş leytenant Nadir Əliyev** də söhbətə qoşularaq bildirdi ki, Azərbaycan Hərbi Dəniz Qüvvələri "Beynəlxalq Ordu Oyunları" çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsinə üç ildir ev sahibliyi edir. "Ev sahibliyi etdiyimiz "Dəniz Kuboku"nda isə ikici dəfədir yarışın qalibi oluruq. Bu il də müsabiqə gərgin mübarizə şəraitində keçdi. Bütün komandalar hazırlıqlı idi. Bizim heyət qarşısına bir məqsəd qoymuşdu - bütün komandalardan daha yaxşı nəticə göstərərək, yarışın qalibi olmaq. Belə də oldu. Ümumi nəticələr elan olunduqda hamımız sevinirdik. Biz bir daha sübut etdik ki, Azərbaycan dənizçiləri hər zaman qalib olmağa hazırdırlar".

"Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsində iştirak edən hərbi dənizçilər arasında hava hədəfini məhv edən yeganə hərbi qulluqçu **miçman Namil Sultanovla** da həmsöhbət olduq. Bizimlə təəssüratlarını bölüşən Namil bildirdi ki, atış zamanı üzərimizə böyük məsuliyyət düşürdü. "Çünki axırıncı atış bizim atışımız idi. Ona görə də hər şey bizdən asılı idi. Biz qarşımıza məqsəd qoymuşduq ki, hədəfi məhv etməliyik. Digər komandaların nümayəndələri də atışımızı izləmək üçün bizim gəmidə idilər. Hər kəs bizdən nəticə gözləyirdi. Bu günə kimi təlimlərdə, məşğələlərdə öyrəndiyimiz bütün bilik və bacarıqlarımızı ortaya qoyaraq, əlimizdən gələnin ən yaxşısını edib, hədəfi məhv etdik. Həmin an keçirdiyimiz sevinc, qürur hissini sözlə ifadə etmək mümkün deyil. Qarşıya qoyulan tapşırıqlar çətin olsa da, öhdəsindən layiqincə gəldik".

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Yasin Məmmədovla**



da söhbətimiz maraqlı oldu. O bildirdi ki, gərgin mübarizə şəraitində keçirilən mərhələdə dənizçilərimizin bacarığı nəticəsində komandamız digər komandalardan üstün nəticə əldə etdi. "Birinci mərhələdə komandamızın qələbə qazandığını gördük, onların sevincindən daha da ruhlandıq. Qələbə qazanacağımıza çox inanırdıq. Komanda olaraq qələbəyə köklənmişdik. Bizdən qabaq çıxış edən komandalar tapşırığı qısa vaxtda icra etdilər. Qələbə qazanmaq üçün onlardan daha cəld və çevik hərəkət etməli idik. Həmçinin maksimum nəticə göstərməli idik ki, bizdən sonrakı komanda bizi qabaqlaya bilməsin. Ona görə də rekord nəticə göstərməyi qarşımıza məqsəd qoyduq. Bununla da həm bizdən əvvəl çıxış edən komandanı qabaqlayacaq, həm də bizdən sonrakı komandanı təəccübləndirəcəkdik. Onu da vurğulamaq istəyirəm ki, bu mərhələdə hava şəraitinin küləkli olması da işimizi çətinləşdirdi. Buna baxmayaraq komandanın hər bir üzvü yüksək əzmkarlıq nümayiş etdirərək, qarşıya qoyulan məqsədə nail oldu".

- Hər kəs öz işinin məsuliyyətini dərindən dərk edirdi, ona görə də komandamız birinci oldu, - deyə **miçman Zaur Abdullayev** söhbətimizə qoşuldu. - Mən mexanik olduğum üçün sadəcə gəminin hərəkətini görə bilirdim. Göyərtədə nələr baş verdiyini, atışların yerinə yetirilib-yetirilmədiyindən xəbərsiz olurdum. Amma epizodlar icra edildikdən sonra komandamızın üzvləri mənə də məlumat verirdilər. Bu yarışlarda yaddaşımda silinməz iz buraxan hadisələr də oldu. Məlum olduğu kimi, hava hədəfinə atışda heç bir ölkə hədəfi məhv edə bilmədi. Ən sonda bizim komandamız tapşırığı yerinə yetirəcəkdi. Atışı miçman Namil Sultanov icra edirdi. Öz peşəkarlığını nümayiş etdirən Namil hədəfi məhv etməklə komandamıza təmiz qələbəni qazandırdı.

Zaur qələbədə hər kəsin payı olduğunu və bu sevinci bütün dənizçilərə yaşatdıqlarına görə komandası ilə qürur duyduğunu qeyd etdi. "Qalibiyyətin əldə olunmasında hamının zəhməti var. Komandir heyəti, iştirak etməyən digər dənizçilər də hər zaman bizə dəstək olurdular. Təbii ki, deyilən sözlər bizi qələbəyə kökləyirdi. Bu gün təkcə bizim gəminin heyəti deyil, bütün Hərbi Dəniz Qüvvələri qalib gəldi, bütün xalqımız qalib oldu. Biz bundan sonra da qatılacağımız müsabiqələrdə ölkəmizi layiqincə təmsil edəcək, bayrağımızı ən yüksək zirvələrdə dalğalandıracaq, Dövlət himnimizi səsləndirəcəyik".

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## Ön xətdə düşüncələr




*Səngərdə eşidilən salam-əleykə milli-xəlqi ruhun ruhlara xeyir-duası deyərdim...*

Səngərdə əvvəlcə baxışlar danışır, sonra baxışların dedikləri ürəkləri dilləndirir, sonra kəlmələr eşidilir. Səngərlərdə əsgərlərlə səmimi söhbətlər mənə həmişə könül xoşluğu verib. Əsgərlərin döyüş əzmində, qələbə ruhunda Doğu-Batı arası "Mən azərbaycanlıyam!" deyənlərin istəyini görmüşəm, bir daha dönməzliklə inanmışam ki, Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan azad edəcək. Ona da əmin olmuşam ki, işğal son nəfəs ərəfəsindədi.

Səngərlərdə əsgərlərimizlə Vətəndən danışırıq, Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızın işğaldan azad ediləcəyindən, Azərbaycanımızın ərazi bütövlüyünün bərpa olunmasından, əsgər dostluğundan danışırıq, düşüncələrim əsgərlərimizin düşüncələriylə o qədər incəliklə, o qədər doğmalıqla qoşulaşır ki!..

Mayın əvvəllərində Lələtəpədə ezamiyyətdəydim. Asudə vaxtda əsgərlərdən birinin əlində o qədər də iri olmayan bir dəstə çiçək görmüşdüm. Gözəlim çiçəklər gözlərimi çəkmişdi. Əsgər davamlı baxışlarımın çiçəklərdən üzülmədiyini duyunca gülümsəmişdi, doğmalıqla demişdi:

- Atamla qonşumuz Həsən əmi əsgərlik yoldaşı olub. SSRİ dağılmamış rus ordusunda xidmət ediblər. 20 Yanvar faciəsindən sonra hərbi xidmətdən yarımçıq gəliblər, xidmətlərini Azərbaycan Ordusunda davam etdiriblər. Atəşkəsə qədər döyüşənlərin sırasında olublar. Döyüşlərdə ikisi də yaralanıb. Atamin son nəfəsinə kimi Həsən əmiylə dostluğu davam etdi. Onların dostluğunu oğul sədaqətiylə Rafiqlə mən davam etdirirəm. Rafiq dörd il əvvəl Cocuq Mərcanlıda xidmət edib. Tərxis olunandan sonra da fikri-xəyalı xidmət etdiyi yerlərdən üzülmürdü. Həmişə deyirdi ki, Cocuq Mərcanlıdan Lələtəpəyə həsrətlə baxırdıq. Rafiqin xatirələri hərbi xidmətimin ilk aylarında bələdçim oldu. Yaxın vaxtlarda mən də tərxis olunacam. O vaxta kimi Ali Baş Komandanın döyüş əmri olarsa, Cıdır düzündən dərəçəyim çiçəkləri, mən tərxis ediləndən döyüş əmri olmazsa, bu çiçəkləri dostum Rafiqə - atamın əsgərlik dostunun oğluna aparacam. Cıdır düzünün həsrətini hamımız çəkmişik. Dərəcəyim çiçəklər, dərdiyim bu çiçəklər Rafiqə Cıdır düzünün, Lələtəpənin xiffətini unutduracaq....

Bu kəlmələri ata adına oğul sədaqəti bilmişdim. Bu sədaqətin təkcə oğulun ataya sevgisi kimi deyil, həm də əsgərin zaman anlamında dünənin əsgərinə ehtiramı kimi yaşadılmasını arzulamışdım. Onda əsgər bayaqki qürurdan bəstə olmayan qürurla demişdi ki, Azərbaycan əsgəri belə bir sədaqətlə xidmət edir. Onlardan biri də mənəm...

Sağ əlim sağ çiyninə enən əsgərə bu boyda mətləbə minnətdarlığı ifadə edəsi söz tapa bilmədim...

İllər əsgər dostluğunun üstündən yel əsdirə bilməz. Əsgər dostluğunun kövrək duyğularla yaşadılması görənə könül xoşluğu verir. Bu dostluğun yaşarılığına, bəşəriliyinə həsəd aparılır; aqillərin "qardaş da dost olsa yaxşıdı" kəlamı həmişə fəzilətə çağırış olub...

Vaqif qəbul imtahanlarından o qədər də yüksək bal toplaya bilmədiyindən ödənişli təhsil ala bilərdi. Buna ailənin gücü çatmayacaqdı - atası şəhid olmuşdu, anasının maaşı dolanışıqlarına ancaq çatırdı. Restoranda ofisiant işləməyi qərara almışdı.

Restoranın sahibi - hamı ona Gəray bəy deyirdi - Vaqiflə söhbətləşəndə kimliyiylə də maraqlanmışdı.

- Atam şəhid olub, anam kitabxanada işləyir. Özümdən 2 yaş kiçik bacım var.

Vaqif nə qədər toxtaqlı danışmağa çalışsa da, səsində qəhər sezilirdi.

Restoranın sahibi hövsələsizliklə soruşmuşdu ki, atan harada döyüşüb, harada şəhid olub.

- Ağdərədə şəhid olub.

Hamı ona Batya deyərmiş. Batyanın oğlu təhsil haqqına görə oxuya bilməyəcək, - Vaqif üzünü sahibkardan gizlətməyə çalışmışdı...

Nə Vaqif, nə də anası bilmədi ki, təhsil haqqını döyüşçü yoldaşlarının Batya çağırdığı dostu Gəray Səlimov - restoranın müdiri ödəyib; əsgər dostunun oğlunun ömür yoluna işıq salmağı o dostluğun mənəvi tələbi olub...

Neçə belə, buna bənzər xeyirxahlıq eşitmişəm... Əmin olmuşam ki, əsgər dostluğu zamanından, məkanından asılı olmayaraq həmişə müqəddəslik mərtəbəsində saxlanılıb. Bu kimi faktlar təsdiqləyir ki, əsgər dostluğu yaşarıdı, bəşəridi...

Əsgər dostluğu cəmiyyətə yaz yağışından sonra göy üzünə yayılan qövsi-qüzeh misallıdı, dan yeri sökülüncə çiçəklərin ləçəklərində alışan jalə, şəbnəm - şeh kimidi...

Müdafiə nazirinin əmriylə ordumuzda keçirilən "Açıq qapı" günündə Vətən sevgisinin işığında ata sevgisi də gördüm, qardaş mehri-ülfəti də gördüm, oğul duyumu, əsgər dəyanəti, təmkini gördüm. "Açıq qapı" günündə əsgər dostluğunun necə qürurla, həm də kövrəkliklə necə yaşadıldığını da gördüm. Həmin gün hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin qarşısında narahatlıqla vargəl edənlər də vardı, bir tərəfə çəkilib xəyallarıyla baş-başa qalanlar da, təzə tanışıyla könül söhbəti edənlər də. Hamının bir azdan başlayacaq tədbirin sonluğunu arzuladığını sezmək çətin deyildi...

Qoşa qolları bir-birinin kürəyində çarpazlaşan orta yaşlı iki kişinin görüşü bəlkə də hamının diqqətini çəkmişdi. Bu bənzərsiz görüşdə mənim də ömrümün böyük bir hissəsi olmuş hərbi xidmətin əlamətlərini görürdüm. Kövrələn də vardı, təəssüflə köks ötürən də. Seyidi, Mahiri, İlqarı, Nağını, Etibarı, Şəmistanı, Qurbanı, Bəhramı, Firudini, Pənahı, Fəğanı, Nizamini... xatırladım...

Əllər əllərdəydi, üz-üzə dayanmışdılar. Nizamsız-mizansız sükut içində baxışlar kəlmələşirdi. Sövq-təbii onlara yaxınlaşdım. Həmid Qasımov Qazaxdan, Əli Əhmədov Masallıdan gəlibmiş. 1994-1996-cı illərdə eyni hərbi hissədə xidmət ediblər. İndi oğulları bu hərbi hissədə xidmət edirlər. 23 ildən sonra ilk dəfə görüşürlər.

- Təsadüfə minnətdaram ki, oğullarımız eyni hərbi hissədə xidmət edir, Müdafiə nazirinə minnətdaram ki, "Açıq qapı" günü keçirilir, taleyimə minnətdaram ki, bu gün sağlamlığım imkan verdi bura gələ bildim, - Həmid kişi belə dedi.

- Mən də sən fikirdəyəm, qardaş. 23 il əvvəl də beləydik, - Əli kişi belə dedi... "Ataların yolu oğulların yoludu" - deyənlər nə qədər haqlıymış", - dedim. Gülümsündülər. "Tədbirdən sonra oğullarımızı tanış edəcəyik" - dedilər. Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən keçirilən "Açıq qapı" günü ataların dostluğunun davamı kimi yeni bir dostluğun - əsgər dostluğunun başlanğıcı olacaq...

... Əsgər dostluğu təsadüflə başlayır, sonralar ömrə, yaşantılara yazılacaq illərin urvatı olur. Dostluğu (həm də daha böyük həssaslıqla əsgər dostluğu!) yaşatmaq mənəvi dəyərlərdir...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində müxtəlif xəstəliklərə düçar olanların sayı artmaqda davam edir. Lakin hansı xəstəliyə yoluxmasından asılı olmayaraq erməni əsgərlərin müalicəyə göndərilməsi bir müşkülə çevrilib.

Ermənistan ordusunun əsgəri Boris Boğazaryanla uzun müddət əlaqə yaradan bilməyən valideynləri hərbi prokurorluğa müraciət ediblər. Prokurorluğun istintaq şöbəsinin əməkdaşı A.Qasparyan işə qarışdıqdan sonra məlum olub ki, o günlərdir xəstədir və taborun tibb məntəqəsində, yaxud bölükdə saxlanılır.

Özünə haqq qazandırmaq üçün müxtəlif bəhanələr gətirən hissə komandiri, prokurorluğun tələbi ilə əsgər B.Boğazaryanı hərbi hospitala göndərib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində hərbi qulluqçular arasında bir-birinə qarşı zorakılıq, fiziki-cinsi təzyiqlər artıq adi hal alıb və bu tip hadisələrin sayı artmaqda davam edir.

Bu günlərdə düşmən ordusunda bir-birinə qarşı zorakılıq zəminində növbəti cinayət hadisəsi qeydə alınıb.

Xidmət yoldaşına qarşı zorakılıqda təqsirləndirilən 4 erməni hərbçi istintaqa cəlb olunub. Taborun Artur D. adlı əsgərinə qarşı nizamnamədənkənar hərəkətlərə yol verən Erik Xanperyan, Harutyun Minasyan, Albert Xaçatrayn və Qarnik Xaçatryan hərbi prokurorluğa aparılıblar.

Faktla bağlı araşdırma davam edir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə terrora qarşı yürüş keçirilib



Türkiyənin Mardin şəhərində terrora qarşı və övladları PKK terror təşkilatı mənsubları tərəfindən dağlara qaçırılan analara dəstək məqsədilə yürüş keçirilib.

Mardinin mərkəzi Artuklu rayonunda yerləşən "15 iyul - Demokratiya və Şəhidlər" parkında toplaşan vətəndaşlar əllərində Türkiyə bayraqları ilə şəhərin Ravza prospekti boyunca yürüş ediblər.

Tədbirdə terror təşkilatlarına, o cümlədən PKK-ya qarşı şüarlar səsləndirilib. İştirakçılar ölkəni bölmək və parçalamaq istəyənlərə qarşı hər zaman bir yerdə olacaqlarını bildiriblər.

## İtaliya Böyük Britaniyanın "Temptest" proqramına qoşulub



İtaliya altıncı nəsil qırıcı təyyarələrin hazırlanması üzrə Böyük Britaniyanın "Temptest" proqramına rəsmən qoşulub.

Bu ölkənin Müdafiə Nazirliyinin yaydığı məlumata əsasən, İtaliya və Böyük Britaniyanın Müdafiə nazirləri Londonda əməkdaşlığa dair memorandum imzalayıblar. Bu əməkdaşlığın əhəmiyyətini yüksək qiymətləndirən İtaliyanın Müdafiə naziri Lorentso Querini deyib: "İtaliya ilə Böyük Britaniya arasında aerokosmik sahədə vacib tərəfdaşlığın başlanması müsbət məqamdır. Bu, İtaliya müdafiə sənayesinin mükəmməlliyini bir daha təsdiq edir".

## Rumıniyada "Platinium Eagle" təlimlərində 300 hərbçi iştirak edir



Rumıniyada "Platinium Eagle" adı altında hərbi təlimlər keçirilir. Təlimlər Babadaq poliqonunda baş tutub. Bolqarıstan, Moldova, Gürcüstan, Ukrayna və ABŞ hərbiçiləri sülhün dəstəklənməsi səviyyəsinin artırılması əməliyyatında iştirak edirlər.

Təlimə qatılan 300 hərbçi atəş, ilkin tibbi yardım, fəaliyyətin idarə olunması kimi əməliyyatlarda bacarıqlarını artırırlar. Sentyabrın 20-dək davam edəcək təlimlər "Black Sea Rotational Force-2019" adlı ümumi hərbi təlimlərin bir hissəsidir.

## Ermənistan ordusunun Aprel döyüşlərində iştirak edən əsgərləri dindirilməyə cəlb olunacaq



2016-cı ilin Aprel döyüşlərini araşdıran Ermənistan parlamentinin istintaq komitəsi dördgünlük əməliyyatların iştirakçılarını yaxın günlərdə "cinayət istintaqına" - dindirilməyə dəvət edəcək.

Sıravi əsgərdən tutmuş zabit heyətinə qədər bütün hərbi qulluqçular, xüsusilə ən qızğın nöqtələrdə olan şəxslər dindirilməyə cəlb olunacaqlar. İndiyə qədər istintaqa Ermənistan Müdafiə Nazirliyinin Əməliyyat İdarəsinin keçmiş rəis müavinləri çağırılıblar.

Xatırladaq ki, Aprel döyüşlərini araşdıran müvəqqəti komitənin səlahiyyətlərini Ermənistan parlamentinin müdafiə komitəsi həyata keçirir və qapalı iclaslar çağırır.

**AZƏRTAC-ın materialları əsasında**

Cavadov Niyazi Afkar oğluna 2001-ci ildə verilmiş muharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 575
Nüsxə 3950